# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

**Bütöv və suveren Azərbaycan ərazisində ilk siyahıyaalınma**



7


SƏS

№ 052 (7462)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

10 iyul 2026-cı il.
Qiyməti 1 manat


## "TRIPP dəhlizi regional nəqliyyat bağlantıları baxımından əhəmiyyətlidir"



2

*Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib*

**Şuşa şəhəri haqqında qanunda dəyişiklik**




3

# Qısa və kəskin...



6

**Gömrük qaydaları: xaricdən hansı məhsulları sifariş etmək olmaz?**



8

**NATO Ankarada Trampa "buynuz göstərdi"...**



5

**Kibertəhlükəsizlik: müştərilərin şəxsi məlumatları karqo şirkətlərində nə dərəcədə qorunur?**



3

**İtirdiyimiz xüsusiyyətlər: xanımlıq**



7



# “Əlaqələrimiz dostluq və qardaşlıq prinsiplərinə əsaslanır”

## *Prezident İlham Əliyev İordaniya Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri nazirini qəbul edib*

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 8-də İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadini qəbul edib. Qonaq İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını və İordaniyaya dəvətini dövlətimizin başçısına çatdırdı, İordaniya Kralının Azərbaycan Prezidenti ilə şəxsi münasibətlərə çox böyük dəyər verdiyini qeyd etdi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi. Azərbaycan Prezidenti də öz növbəsində İordaniya Kralını ölkəmizə səfərə dəvət etdi. Dövlətimizin başçısı ölkəmizdə, İordaniyada və beynəlxalq tədbirlər çərçivəsində Kral II Abdullah ibn Al Hüseyn ilə görüşlərini məmnunluqla xatırladı.

Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından mühüm rol oynadığı vurğulandı, əlaqələrimizin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı qeyd edildi. Siyasi, iqtisadi, energetika, bağlantılar, investisiyalar, humanitar və digər sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, regional məsələlər, gələcək təmaslar, hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi və parlamentlərarası əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

Turizm sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycanla İordaniya arasında birbaşa müntəzəm aviareyslərin açılması məsələsi müzakirə olundu.

# “TRIPP dəhlizi regional nəqliyyat bağlantıları baxımından əhəmiyyətlidir”



## *Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib.***

Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ Prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bunun ölkələrimiz, eyni zamanda, region üçün çox önəmli olduğunu dedi.

Dövlətimizin başçısı ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfərini məmnunluqla xatırladı, həmin səfər zamanı “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev Donald Trampla şəxsi münasibətlərinin də yüksək səviyyədə olduğunu deyərək, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında onun xüsusi rol oynadığını vurğuladı.

Stiv Deynsin ölkəmizə son səfərindən sonra tarixi hadisələrin baş verdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan-ABŞ əlaqələrinin inkişafı istiqamətində göstərdiyi səylərə görə qonağa təşəkkürünü bildirdi. Senator Stiv Deyns də öz növbəsində son dövrlərdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini dedi, Azərbaycan Prezidentinin ötən ilin avqustunda Vaşinqtona səfərinin əlamətdar hadisə olduğunu vurğuladı.

Qonaq, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi səviyyədə mühüm rolunu qeyd etdi. Stiv Deyns Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə əlaqədar nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Söhbət zamanı TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından əhəmiyyəti vurğulandı, Azərbaycanla ABŞ Senatı arasında dialoqun möhkəmləndirilməsi və tərəfdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.




# “Milli mətbuatımız müasir dövrə uğurla uyğunlaşıb”

***“Azərbaycan mətbuatı bu gün XXI əsrin tələblərinə uyğun şəkildə fəaliyyət göstərir. Əlbəttə ki, Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi “Əkinçi” qəzetini nəşr etməyə başlayarkən bugünkü inkişaf səviyyəsini təsəvvür belə edə bilməzdi. Onun əsas məqsədi xalqı maarifləndirmək idi".***

Bunu SİA-ya açıqlamasında media eksperti Azər Həsrət deyib.

Media eksperti sözlərinə belə davam edib: ”Həsən bəy Zərdabi istəyirdi ki, insanlar oxuyub-yazmağı öyrənsin, qəzet oxusun, dünyagörüşünü genişləndirsin və savadlı cəmiyyət formalaşsın. O dövrdə mətbuatın başlıca missiyası məhz maarifçilik idi. Bu gün isə medianın missiyası daha da genişlənib. Artıq biz təkcə maariflənmiş cəmiyyətin formalaşmasına deyil, həm də informasiya cəmiyyətinin inkişafına xidmət edirik. Müasir media yeni texnologiyaların tətbiqi, operativ və etibarlı informasiya mübadiləsinin təmin edilməsi, cəmiyyətin düzgün məlumatlandırılması istiqamətində fəaliyyət göstərir. Məqsəd hər bir vətəndaşın informasiyaya sürətli və rahat çıxışını təmin etməkdir.

Sevindirici haldır ki, Azərbaycan mediası bu gün inkişaf baxımından yüksək səviyyəyə çatıb. Müasir texnologiyaların tətbiqi, rəqəmsal platformalardan geniş istifadə, müxtəlif xarici dillərdə fəaliyyət göstərən media resurslarının artması onu göstərir ki, Azərbaycan mediası dünyanın qabaqcıl media qurumları ilə rəqabət aparmaq imkanına malikdir.

Milli mətbuatımızın növbəti ildönümünü qeyd edərkən bu inkişafı qürur hissi ilə vurğulaya bilərik. Əminliklə demək olar ki, Həsən bəy Zərdabinin arzuları böyük ölçüdə gerçəkləşib. Bu gün Azərbaycanda demək olar ki, hər kəs - uşaqdan böyüyə qədər - media ilə gündəlik təmasdadır, xəbərləri izləyir, oxuyur, paylaşır və informasiya mühitinin fəal iştirakçısına çevrilib.

Bütün bunlar vaxtilə Həsən bəy Zərdabinin əsasını qoyduğu maarifçilik ideyalarının müasir dövrdə uğurla davam etdirildiyinin ən gözəl göstəricisidir”.

***Günel Fərzəliyeva***

# Şuşa şəhəri haqqında qanunda dəyişiklik

***Zəngin və şanlı tarixi keçmişə malik Şuşa əsrlərin sınagindan cıxaraq yüzilliklərin daş yaddaşında tarix yazıb. Bu tarix Şuşa haqqında olan bütün məlumatları özündə əks etdirib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq – Gəncə və Qarabağ xanlıqları yarandı. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır.***




Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qalaşəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Mənbələrdə göstərilir ki, məşhur rəssam V.Vereşşagin Şuşanı görəndən sonra yazırdı: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir".

### QAFQAZIN MUSİQİ MƏRKƏZİ - ŞUŞA

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Mənbələrdə göstərildiyi kimi, hələ XIX əsrin ortalarından başlayaraq Şuşanın mədəni həyatında bir canlanma baş verib. Azərbaycan dramaturgiyasının banisi M.F.Axundov öz komediyalarını geniş şəkildə yaymaq məqsədi ilə 1852-ci ildə teatr tamaşalarının intişar tapdığı Şuşa qalasına gələrək, arzusunu reallaşdırıb. V.Şekspirin "Otello"su Azərbaycanda ilk dəfə 1893-cü ildə şuşalı müəllim, dramaturq və jurnalist Haşım bəy Vəzirov tərəfindən tərcümə edilərək səhnələşdirilib. Daha sonra C.Məmmədquluzadənin "Ölülər" tragi-komediyası ilk dəfə 1916-cı ildə Xurşudbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulmuşdu. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur.

Əlbəttə ki, Şuşa Azərbaycanın mədəniyyət beşiyidir. Şuşada dünyaya göz açan xalqımızın mənəviyyatı və mədəniyyəti üçün özlərini fəda edən Azərbaycanın mədəniyyət və incəsənətinə töhfə vermiş mədəniyyət və incəsənət tarixinə ədəbi iz salmış Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Nəcəf bəy Vəzirov, Zülfüqar Hacıbəyli, Şəmsi Bədəlbəyli, Barat Şəkinskaya, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyli, Bülbül, Niyazi, Mehdi Məmmədov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Məhərrəm Əlizadə və onlarla belə sənətkarların yaratdıqları sənət inciləri tarixi nümunələrdir.

### "ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ İSƏ AZƏRBAYCAN YOXDUR"

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də ermənі iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Ulu Öndər, eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu. Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci ildə acılışı olmuşdur.

1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununu təsdiqləyib. Qanuna əsasən, "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 562 (Cild I); 2026, № 1, maddə 11) 5.2-ci maddəsi aşağıdakı redaksiyada veriləcək. Şuşa şəhərinin ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.

### "AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI – ŞUŞA ŞƏHƏRİ HAQQINDA" QANUNUNDA DƏYİŞİKLİK

"Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 421-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Fərman imzalayıb. Qanunun tətbiqini təmin etmək məqsədilə müəyyən edilib ki, "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirib. Həmin Qanunun 5.2-ci maddəsində "orqan (qurum)" dedikdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi nəzərdə tutulur. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 421-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll edəcək. "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 589 (Cild I) 1.1-ci və 1.4-cü bəndlərinə "5.1-ci" sözlərindən sonra ", 5.2-ci" sözləri əlavə ediləcəkdir.

Artıq bu gün Şuşada yeni bir həyat başıayıb. Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq". Susada yeni həyat canlanir. Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edib. Cənab Prezident bildirib ki, Şuşa nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər.

***Zümrüd BAYRAMOVA***

# Kibertəhlükəsizlik: müştərilərin şəxsi məlumatları karqo şirkətlərində nə dərəcədə qorunur?



"Bu gün karqo şirkətləri müştərilər haqqında kifayət qədər həssas məlumatları emal edirlər. Bura ad və soyad, mobil telefon nömrəsi, ünvan, elektron poçt, bəzi hallarda şəxsiyyət vəsiqəsi məlumatları, sifariş tarixçəsi və ödəniş məlumatları daxildir." Bu sözləri SİA-ya texnoloq Elvin Həsənov deyib. O bildirib ki, buna görə də bu məlumatların qorunması həm hüquqi, həm də texniki baxımdan böyük məsuliyyət tələb edir. Düşünürəm ki, etibarlı karqo şirkətlərində bu məlumatların qorunması üçün müxtəlif təhlükəsizlik mexanizmləri tətbiq olunur:

"Məlumatların şifrələnməsi, giriş səlahiyyətlərinin məhdudlaşdırılması, təhlükəsizlik monitorinqi və müntəzəm olaraq kibertəhlükəsizlik yoxlamaları artıq şirkətlər üçün standart yanaşma olmalıdır. Lakin etiraf etmək lazımdır ki, heç bir sistem yüz faiz toxunulmaz deyil. Dünyanın ən böyük logistika və texnologiya şirkətləri belə zaman-zaman kiberhücumlara məruz qalırlar. Ən böyük risk isə bəzən texniki sistemlərdən deyil insan faktorundan qaynaqlanır. Məsələn əməkdaşın məlumatı ehtiyatsız paylaşması, zəif paroldan istifadə etməsi və ya fişinq hücumuna aldanması nəticəsində məlumat sızması baş verə bilər. Statistikalar da göstərir ki, insidenlər əsasən insan amili yaranır. Əlbətdəki bir başqa vacib məsələ müştərilərin öz davranışıdır. Təəssüf ki, bəzi insanlar karqo adı ilə göndərilən saxta sms-lərə və ya elektron məktublara inanaraq kart məlumatlarını və ya şəxsi məlumatlarını paylaşırlar. Əslində məlumatların oğurlanması həmişə şirkətin sistemınə edilən hücum nəticəsində baş vermir. Çox vaxt kiberdələduzlar şirkətin adından istifadə edərək vətəndaşı aldadırlar. Əgər sizdən kart məlumatı, sms təsdiq kodu və ya əlavə ödəniş tələb olunursa, bunu birbaşa şirkətin rəsmi tətbiqi və ya müştəri xidmətləri vasitəsilə dəqiqləşdirmək lazımdır".

***Ayşən Vəli***

# Ailədə zorakılıq: bu, çıxış yolu deyil

***Ailə şəxsiyyəti və cəmiyyəti formalaşdıran mühüm sosial institutdur. Azərbaycan mədəniyyətində ailə başlıca mərkəzi anlayışdır, ailəyə münasibət isə şəxsiyyətin sosial əhəmiyyətinin qiymətləndirməsinin və özünütəsdiqin vacib amilidir. Azərbaycan ailələrində və yaxın qohumlar arasında həmişə bir-birinə sayğı, hörmət olub. Hətta qohum ailələrin uşaqları bir-biri ilə oyuncaq üstündə dalaşmaq istəyəndə belə böyüklər buna dərhal reaksiya verib və kiçik bir hadisənin böyüməsinin qarşısını alıblar. Çünki həqiqətən də kiçik bir hadisə sabahkı böyük hadisənin başlanğıcıdır.***



Maraqlıdır, ailə dəyərlərinə bu qədər sadiq bir xalqın nümayəndələri necə oldu ki,



ailə daxilində bir-birinə aqressiv yanaşmağa başladılar? Hadisələr necə cərəyan edir, hansı mərhələlərdən keçir ki, oğul ataya balta qaldırır, ata övladını öldürrür, oğul anasını bıçaqlayır, qız anasını döyür, ər arvadını hər kəsin içərisində təhqir edir, küçədə arvadını döyərkən bütün qonşular köməyə gəlir? Necə olur ki, arvad ərindən gizli işlərlə məşğul olur və üstü açılanda əri tərəfindən zorakılığa məruz qalır.

Hansı səbəblər, hansı qüvvələr bizim ailə dəyərlərimizi zədələyə bildi. Hansı qüvvələr bizim bir-birimizə olan sayğımızı oğurladı, ailələrimizin, qohumların arasına nifaq toxumu səpə bildi? Biz bunu nə üçün sezə bilmədik, fərqinə varmadıq? Fərqinə varanda isə gördük ki, yox, biz artıq dünənki insanlar deyilik. Dəyişmişik. Atamıza, anamıza, bacı-qardaşımıza silah endirən, qanına qəltan edən varlıqlara çevrilmişik. Həyat yoldaşımızı təhqir, xəyanət edən, övladımızı doğub küçəyə atan, onu gəzmək adı ilə aparıb dənizə atan yaranmışlara çevrilmişik. Bəs səbəb nədir?

### Deyirlər, səbəb səbrin azalmasıdır

Əgər deyilən kimidirsə, onda bunu anlamağa çalışaq görək ki, səbrimizə nə oldu, o, niyə azalmağa başladı və günlərin birində niyə yoxa çıxdı? Axı bizim səbrimiz tükənməz bir səbr idi. Əsrlərlə ailə institutumuzda aldığımız dərslərin hər birinin mahiyyəti səbirdən ibarət olmuşdu. O institutda digər dəyərlər kimi, səbir etməyi də öyrətmişdilər bizə.

Səbrin azalmasını çox vaxt sosial vəziyyətlə əlaqələndirirlər. Lakin nəzər salsaq, görərik ki, bütün zamanlarda sosial problemlər olub. Hər dövrdə işləyən də, işləməyən də olub, çox qazanan, az qazanan insanlar olub. Lakin bunlar insanların, xüsusilə də doğmaların bir-birinə sayğısına xələl gətirməyib. Az qazanmaq o demək olmayıb ki, insanın səbri azalsın və əzizinə zorakılıq etsin. Müvəqqəti işsizlik o demək olmayıb ki, insan övladını öldürsün və yaxud da həyat yoldaşını küçədə döysün.

Bütün bunların baş verməsinin əsla şahidi olmamışıq. Əksinə, zamanla ailələrdə, qohumluqda bu xalqa məxsus dəyərləri müşahidə etmişik. Görmüşük ki, bir ailə kasıbdır, dolanışıq səviyyəsi çox aşağıdır, lakin ailədə hörmət, sayğı var. Deməli, kasıb olmaq, yaxşı maddi gəlir əldə edə bilməmək sayğını qamçılayan səbəb deyil. Qarşılıqlı hörmət, sayğı zaman-zaman ailələrimizdə mehribançılığın, anlayışın təməl daşı olub. Bu anlayış da evlərdə böyüyən uşaqlara sirayət edib. Beləliklə də biz valideynlərimizdən görə-görə gəlmişik. Onlar özlərini ailədə necə aparıblarsa, necə davranıblarsa, biz də bütün bunları öz ailəmizdə tətbiq etmişik. Elə bu gün də belədir. Kim ailəsində hansı şəraitdə böyüyürsə, bu, onun gələcək həyat amalına çevrilir. Həm müsbət, həm də mənfi mənada.

### Bəs doğmalara ögey münasibətin səbəbi nədir?..

Elə ki, internet həyatımıza daxil oldu, biz söhbətimizlə eyni motivdə xarici ölkələrdə istehsal olunan film, seriallara tamaşa etməyə başladıq, zaman-zaman səbrimiz də yoxa çıxmağa başladı. Bu, təbii ki, hər kəsin səbrinə təsir edə bilməz. Əlbəttə ki, psixoloji vəziyyəti zəif olanların, həm də belə film, seriallara, sosial şəbəkələrdəki vəhşət saçan videolara dayanmadan-durmadan baxan insanların psixologiyasını sıradan çıxarır. Bu qəbildən olan insanlar artıq insani hissləri şeytani hisslərə qurban verir. Belə olanda isə bir-birinin ardınca zorakılıq hadisələrinin şahidi oluruq: oğul valideynin üzünə qayıdır, qız ananı saymır, kişi sevgilisi ilə birlikdə həyat yoldaşını döyür, televizora yüksək səs verdiyi üçün ər arvadına qarşı zorakılıq tətbiq edir və sair.

Qeyd etməyi lazım bilirəm ki, ailə münaqişələrinin əksəriyyəti namus, əxlaq məsələlərinə görə baş verir. Bu xalqın mentaliteti var. Bu mentalitet yüksək əxlaqi dəyərlər əsasında formalaşıb. Bizim səbrimiz o vaxt öz kasasından aşır ki, namusumuza, əxlaqımıza xələl gələn hadisələrlə rastlaşırıq. Bəs bu kimi halların yaranması səbəbi nədir? Yenə də internet, sosial şəbəkələr.

Yuxarıda da qeyd etdiyim kimi, sosial “maariflendirmə”ni hər kəs eyni cür qarşılamır. Kimi bunun altında nələrin yatdığını anlayır, kimi isə bu “maariflendirmə”nin toruna düşür. Belə ki, filmlər, sosial şəbəkə videoları çağırır ki, siz də bizə oxşayın: yaxşı geyinmək, bahalı avtomobil sürmək, gözəl evlərdə yaşamaq, bahalı yerlərdə yeyib-içmək üçün xəyanət edin, aldadın, əyri yollara əl atın. Cəmiyyətin psixoloji vəziyyəti zəif olan insanları da bu aldatmaların güdazına gedir. Beləliklə də namus məsələsi ailə münaqişələrinin yaranma predmetinə çevrilir. Məsələn, ərin arvadını sevgilisi ilə birlikdə yaxalayıb öldürməsi, qadının özündən dəfələrlə böyük yaşda kişi ilə birlikdə yaşaması, adi bir münaqişə üstündə kişinin hər kəsin gözü qarşısında arvadını döyməsi, yaxşı geyinmədiyi, yemədiyi, gəzmədiyi üçün həyat yoldaşına “sən kişi deyilsən”,-deyən, əvəzində isə yoldaşı tərəfindən bıçaqlanan qadın kimi. Və saya biləcəyimiz yüzlərlə buna bənzər hadisələr...

Deməli, həyatımızın ayrılmaz parçasına çevrilən sosial şəbəkələr bugünkü ailədaxili münasibətləri tənzimləyən alətə də çevrilib.



### Narkomaniya da alkoqolizm hadisənin əsasıdır

Ailə münaqişələrinin əsasında digər tərəfdən isə sərxoşluq dayanır. Bütün zamanlarda alkoqol ailə münasibətlərinin qayçısı olub. Yaxın qohumlar arasında nifaq toxumu olub. İnsan sərxoş olub istənilən hərəkəti törədə bilər. Sərxoş olarkən düşünməkdən kənar olan adama bütün bunların əvəzində sanki güc, enerji gəlir. Elə bu zaman da gözləri qarşısına qalın bir pərdə çəkilir və həyat yoldaşına, övladlarına, ən yaxın qohumlarına, hətta ata-anasına qarşı zorakılıq tətbiq edə bilir. Ayılanda isə artıq iş işdən keçmiş olur. Hadisə baş vermiş, ya ölüm var, ya yaralanan. Arıq gecdir.

Narkomaniya da alkoqolizm kimi ailə münaqişələrində başlıca yer tutan qüsurdur. Bu gün ailə münaqişələrinin statistikasına nəzər salsaq, alkoqollu içkiləri və narkotik vasitələri qəbil edənlərin bu kimi çoxsaylı hadisə törətdiyinin şahidi olarıq.

Buradan isə belə bir qənaətə gəlmək olur ki, kim ki həyatına içkini və narkotik vasitələri daxil edir, zaman-zaman onların aludəçisinə çevrilir, o, bəri başdan sayğıdan da, hörmətdən də əl çəkməyi gözə alır. Açıq şəkildə özü də ətrafındakı doğmaları da bilir ki, bu yolun sonu yoxdur. Onlar ya özlərini məhz edəcəklər, ya da ailələrini.

Buna görə də içki və narkotik vasitələrə doğru gedən insanlar ailələri, yaxın və doğmaları ilə bu vasitə arasında bir uçurumun olduğunu görməli və bu uçurumdan yıxılmamaq, arxada olan hər şeyi məhv etməmək üçün yolun nədən ibarət olduğuna bir daha nəzər salmalıdırlar. Əks təqdirdə özləri kimi, əzizlərini də məhv etmiş olurlar.

### Nə edək ki, doğmalarımıza qarşı doğma olaq

Bu, həm bizim ailə dəyərlərimizdən, həm də bir xalq kimi insani keyfiyyətlərimizdən irəli gələn məsələdir ki, doğmalarımıza qarşı hər zaman doğma, mehriban, hörmətli münasibətdə olmalı, onlara böyük sayğı ilə yanaşmalıyıq. Bunun üçün əlimizdən gələni etməliyik. İnsan yeri gələndə sosial şəbəkələrdən, yeri gələndə ağılsız, hərdəmxəyal düşüncələrdən, yeri gələndə alkoqollu içkilərdən və narkotik vasitələrdən kənar olmalıdır.

Ailələrimizdə övladlarımız böyüyür. Özümüz azmış kimi, onlara da vəhşiliyi təbliğ edən filmlərə baxmağa şərait yaradır, körpələrin bu mövzuda cizgi filmlərinə baxmasına səbəbkar oluruq. Gələcəkdə bu uşaqlar münaqişə törədəndə, zorakılıq edəndə deyəcəyik ki, görəsən nə üçün belədir. Anlamaq istəməyəcəyik ki, onu bu hala biz özümüz gətirmişik.

Odur ki, nəyin bizə mənfi təsir edəcəyinin qarşısını əvvəldən alaq. Əl-ələ verib ailə dəyərlərimizi qoruyaq. Onların bu gün hansı bir qüvvəninsə qurbanı olmasına icazə verməyək. Bir də bir qədər səbir, hövsələ, bir qədər anlayış, qarşılıqlı söhbət, dinləmə qabiliyyəti ailə münaqişələrinə, doğmalara qarşı balta qaldırmağa son qoya bilər. Məsələn, aşağıdakılar kimi:

- münaqişə haqqında danışmaq üçün münasib zaman və məkan olmalıdır. O zaman ki, ac və ya qəzəblisiniz, çətinlikləri həll etmək üçün münasib zaman deyildir. Həmçinin səs-küylü şəraitdə və insanların içində məsələ həll etmək olmaz. Xüsusilə də uşaqların yanında;

-mənfi hisslərinizi bəyan edin. Bəzən həyat yoldaşları öz çətinliklərini demək yerinə, bu hissləri nümayiş etdirirlər: ufuldamaqla, danışmamaqla, qışqırmaqla. Əgər narahatlıqlarını dillərinə gətirməsələr, qarşı tərəf bu hisslərdən xəbərdar ola bilməz. Hissləri bu cür rəftarlarla nümayiş etdirmək yerinə, münasib sözlərlə ifadə etsələr, onu aradan qaldırmaq üçün daha çox şərait yaranar;

-sözlərinizə diqqət edin. Təhqir etməyin, töhmət vurmayın. Əgər səsiniz yüksələrsə, bir qədər özünüzü çimdikləyin ki, səsinizi dəyişəsiniz. Sonra söhbətinizə davam edin;

-keçmiş sandıqları açmayın. Münaqişəni həll etməyin yollarından biri də keçmiş problemləri yada salmamaqdır. Bu rəftar məsələnin daha da qəlizləşməsinə səbəb olar. Hal-hazırda olan problem haqqında danışın, başqa şey haqqında deyil;

-aranızda olan əsl problemi müəyyən edin. Söhbət edən zaman bu mövzunun üzərində dayanın. Yəni bu problemi müəyyən edib, ona dəqiq tərif vermək sizə bu münaqişəni həll etməkdə həll yolu göstərər;

-özünüzün və həyat yoldaşınızın istəklərinə diqqət edin. Hər ikisi də öz istəyini bəyan etsin. Çalışın ki, öz nəzərlərinizi həyat yoldaşınıza qəbul etdirməyə çalışmayasınız. Bu problemə onun da baxışından nəzər salın;

-bu problemdə hər birinizin payına düşən mövzular haqqında söhbət edin. Tərəflərin bir çoxu bəhs edən zaman təqsirkar olmadıqlarını sübut etməyə çalışarlar. Qarşı tərəfin təqsirkar olduğunu iddia edərlər. Bunu nəzərə alın ki, qarşı tərəfi ittiham etməklə heç bir çətinlik həll olmaz. Bu zaman ancaq özünü müdafiə etmək münasibətləri daha da çətinləşdirər. Bu məsələdə öz payınıza düşən səhvi araşdırın və boynunuza alın;

-hər birinizin problemi həll etmək üçün hansısa addım atması lazımdır. Həyat yoldaşınıza “mənim əlimdən nə gəlirsə, etməyə hazıram”,-deyin. Bu problem haqqında söhbət etmək hər ikinizə də öyrədəcəkdir ki, çətinliklə üzləşən zaman necə rəftar etməlisiniz.

Beləliklə, biz elə etməliyik ki, bir-birini söyən, döyən, təhqir edən ailə üzvləri əvəzinə, bir-birinə sayğı, hörmət bəsləyən ailə üzvlərimiz olsun. Zorakılıq çıxış yolu deyil, unutmayaq!

***Mətanət Məmmədova***

# NATO Ankarada Trampa “buynuz göstərdi”...

**Mətləb Salahov: “Artıq əksər NATO dövlətləri əvvəlki kimi ABŞ rəhbərini ciddiyə almır, onun iştirakı olmadan Avropanın təhlükəsizliyi üçün çarə axtarırlar”**



“NATO-nun Ankarada keçirilən son sammiti qəbul edilən qərarlarla yanaşı, daima özünü Alyans daxilində hegemoniya kimi aparan ABŞ Prezidenti Donald Trampa olan münasibətlə də yadda qaldı. Xüsusilə əvvəlki illərdən fərqli olaraq Qərb dövlətləri artıq qocaman Ağ Ev rəhbərindən çəkinmək əvəzinə onun sərt riktorikasına eyni sərtliklə cavab verir, Alyans üzvlərinin maraqlarını qorumaq üçün okeanın o tayından gələn hədə və tapşırıqları qulaqardına vururlar. İş o yerə çatıb ki, Ankaradakı Sammitə qatılan Lüksemburqun XİN rəhbəri Ksavye Betel Qərb KİV-lərinə açıqlamasında Türkiyəyə D.Trampı razı salmaq üçün deyil, Avropanın təhlükəsizliyi üçün çarə tapmağa gəldiyini elan edir. Bu fakt, daima əsib-coşmaqla, digər Qərb liderlərini alçaltmaqla “məşhurlaşan” milyarder ABŞ Prezidentinə olan “artıq yerini bil” mesajıdır”.

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, İrandakı uğursuz müharibə və D.Trampın əksər vədlərini yerinə yetirmək gücündə olmaması, üstəlik, öz şəxsi maraqları naminə Avropanın təhlükəsizliyini riskə atması “qoca qitənin” şəxsən D.Trampa artıq etibar etməməsinə əsas yaradır. “Artıq Avropa liderləri D.Tramp olmadan Avropanın təhlükəsizliyi üçün çarə axtarırlar. Çünki bu adam dünya siyasətini nəinki Prezidenti olduğu ABŞ dövlətinin maraqlarına, hətta öz şəxsi varlanmaq məqsədlərinə görə müəyyənləşdirir. Demək olar ki, bəzi post-sovet ölkələrini və bir çox başqa ölkələri də “Fələstinə yardım” adı ilə “Sülh Fondu”na vəsaitlər ödəməyə məcbur edir. İlk hakimiyyətə gəldiyi vaxtlarda Ukrayna münaqişəsini birdəfəlik bitirəcəyini desə də, sonradan silah ticarəti və çirkli pulların “yuyulduğu” bu müharibəni bitirmək heç onun yadına da düşmür. Bu azmış kimi İranda mənasız müharibə yaradaraq orada ABŞ-ın ciddi dövlət imicini də torpağın dibinə “basdırır”. Görünür, artıq D.Trampın başqalarını aşağılamaqla qorxutmaq dövrü başa çatır”.

***Afət Tahirqızı***

# Almaniya mediası nasistlərin girovuna çevrilir

*Nasistlərə bağlı Deutsche Welle, Le Figaro, Berliner Zeitung kimi televiziya kanalları və media orqanları dezinformasiya yayan mərkəzlərə çevriliblər*




***Avropada mövcud olan dövlətlərin daxilində qarşıdurmalar, xalqlarla hakimiyyətlər arasında ziddiyyətlər qoca qitənin media orqanlarından yan keçməyib. Artıq vəziyyət o dərəcədə böhranlı məcraya yüksəlib ki, Almaniya, Fransa, Niderland kimi Avropa dövlətlərində jurnalist fəaliyyəti ilə məşğul olmaq təhlükəli hesab olunur.***

Çünki irad xarakterli yazılara, tənqid ruhlu məqalələrə görə media mərkəzlərinə hücumlar təşkil olunur, jurnalistlər döyülür, bəzi hallarda qeyri-qanuni şəkildə həbsxanalara atılırlar. Xüsusilə də, Almaniyada medianın vəziyyəti daha acınacaqlı və faciəvidir. Bu ölkədə KİV-lər informasiya azadlığından məhrumdurlar. Eyni zamanda, jurnalistlər ciddi təpki altındadır. Kütləvi tədbirlərin, əsasən də hökumət əleyhinə olan aksiyaların işıqlandırılması zamanı jurnalistlər böyük çətinliklərlə üzləşməli olurlar. Birbaşa Almaniya hökumətinin göstərişi ilə polislər jurnalistlərin normal fəaliyyət göstərmələrinə, öz peşə borclarını yerinə yetirmələrinə imkan vermirlər. Aksiyalar zamanı polisin müdaxilələri və ya çəkiliş azadlığına məhdudiyyət qoyması halları kütləvi xarakter daşıyır. Bu baxımdan da dəfələrlə beynəlxalq jurnalist təşkilatları Almaniya hökumətindən jurnalistlərə qarşı total hücumları dayandırmağı tələb ediblər. Hətta Beynəlxalq Jurnalistlər Federasiyası Almaniya hakimiyyətindən mediaya qarşı repressiyaları dayandırmağı tələb edib. ABŞ-də yerləşən Jurnalistləri Müdafiə Komitəsi Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsinə Almaniyada mediaya qarşı total hücumların dayandırılmasına yardımçı olmaq xahişi ilə məktub göndərib. Lakin Almaniya hakimiyyəti dünya ictimaiyyətinin, beynəlxalq jurnalist təşkilatlarının çağırışlarına əməl etmir. Hələ də media basqı altındadır, jurnalistlər fikir və rəylərinə, mövqelərinə görə təzyiq olunurlar.

### Almaniya KİV-ləri nasistlərə xidmət edir

Almaniyanın “Deutsche Welle”, “ARD” telekanalları, Le Figaro, Nachrichten TV(Naxrixten), Berliner Zeitung, “Frankfurter Allgemeine Zeitung”, “Der Tagesspiegel”, ZDF, t-Online, Die Welt, Focus, Stern kimi yarı hakimiyyət, yarı nasistlərə xidmət edən media orqanları mütəmadi olaraq dünyanın demokratik, azad cəmiyyətləri haqqında şər və böhtan xarakterli məlumatlar paylaşırlar. Onların hədəfində olan dövlətlərdən biri də Azərbaycandır. Nasistlərin, xüsusilə də Frank Şveber kimi faşist ideoloqlarından göstəriş alan Deutsche Welle”, “ARD” telekanalları, Le Figaro, Nachrichten TV(Naxrixten), Berliner Zeitung, “Frankfurter Allgemeine Zeitung”, “Der Tagesspiegel”, ZDF, t-Online, Die Welt, Focus, Stern Deutsche Welle”, “ARD” telekanalları, Le Figaro, Nachrichten TV(Naxrixten), Berliner Zeitung, “Frankfurter Allgemeine Zeitung”, “Der Tagesspiegel”, Die Welt, Focus kimi televiziya kanalları və meda orqanları Azərbaycan haqqında dezinformasiya xarakterli materiallar tirajlayırlar. Bu üzdəniraq media orqanları hələ Azərbaycanda yüksək səviyyədə keçirilən ilk Avropa Oyunları, “Eurovision” mahnı müsabiqəsi və digər beynəlxalq tədbirlər ərəfəsi və sonra əsl nasist baxışlarına, yanaşmalarına uyğun materiallar paylaşmışdılar. Araşdırmalarla məlum olmuşdur ki, nasistlərin təsiri altında olan media orqanlarının Azərbaycan haqqında yayılmış qərəzli məlumatları eyni mərkəzin süzgəcindən keçib. Bu günlər öz ənənəvi ampluasından çıxış edən “Le Figaro” nəşri Azərbaycanla bağlı sifarişli material dərc edib. Üzdəniraq “Le Figaro” nəşrinin jurnalistinin Qərbi Azərbaycanın bir hissəsi olan Sünik bölgəsindən hazırladığı reportajda Qarabağı tərk etmiş ermənilərin Azərbaycana qarşı iftiralarından ibarət dezinformasiyalarını yayımlayıb. Halbuki, Ermənistanın işğalı dövründə azərbaycanlı məcburi köçkünlər böyük iztirablar yaşayıb, məşəqqətlər görüblər.

Yəni Almaniya faşizmi nüvə silahına malik olarsa, bəşəriyyətin yenidən təhlükə ilə üzləşəcəyi şübhəsizdir. Ona görə də BMT, nüfuzlu beynəlxalq təşkilatlar, sivil, demokratik dövlətlər və xalqlar ayağa qalxmalı, faşizmi beşikdəcə boğmaq üçün hərəkətə keçməlidir. Bu halda Frank Şveber kimi təhlükəli canilərdən dünya xilas olar və rahat nəfəs alar. Unutmaq olmaz ki, unutqanlıq növbəti böyük faciələrə yol aça bilər.

***İ.ƏLİYEV***



**Elçin Bayramlı**

# Uşaqlarımızı necə tərbiyə edirik?

***Uşaqların və gənc nəslin sağlam fiziki, mənəvi inkişafının təmin olunması hər bir cəmiyyətdə ən vacib problem, əhəmiyyətli məsələdir. Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da bu məsələ həmişə aktualdır. Məsələnin iki aspekti var– fiziki və mənəvi inkişaf. Etiraf edək ki, hər iki tərəfdə ciddi problem mövcuddur.***

Fiziki inkişaf uşaqların təhsil, yaşamaq, normal tibbi yardım almaq, normal qidalanmaq, təhlükəsizlik hüququ kimi təməl ehtiyaclarının lazımi qaydada təmin olunmasıdır. Əvvəllər uşaqların həm dərsləri, həm də asudə vaxtları düzgün və səmərəli təşkil olunurdu. Uşaqlar pulsuz şəkildə məktəbdənkənar yaradıcılıq və idman kurslarına cəlb olunur, mərhələli şəkildə tərbiyə edilirdilər. Uşaqlıqdan sağlam ruhda tərbiyə aşılanırdı, gələcək üçün sistemli şəkildə kadrlar yetişdirilirdi. Son vaxtlar bu sahədə problemlər yaranıb.

Bir çoxunun uşaqlarını idman kurslarına, yaradıcılıq mərkəzlərinə göndərmələri üçün maddi imkanları çatmır. Belə kurslar ayda minimum 50 manatdan başlayır. Nəzərə alsaq ki, bir ailədə 2-3 və daha çox uşaq ola bilər. Onların hər biri kursa getsə, aya neçə yüz manat vəsait edir. Bu isə ailənin ümumi gəliri qədərdir. Deməli, əhalinin əksər hissəsi üçün bu, mümkün deyil. Belə bir halda narkomaniyanın yayılması, uşaq cinayətlərinin artması, uşaqların psixologiyalarının korlanması kimi problemlər açıq-aşkar özünü göstərir və artmaqdadır. Məsələ həll olunmalıdır. Təbii ki, valideynlərin də burada rolu var. Valideyn uşaqların sağlam qidalanmasını, sağlam tibbi yardım almasını təmin etməlidir. Bunu həm özləri, həm də dövlətin yaratdığı imkanlar çərçivəsində edə bilərlər.

Məktəblərin də əlindən tərbiyə funksiyası alınıb, yalnız təhsil verən funksiya qalıb. Uşaqlara məktəbdə kurikulum sistemi, yeni və müasir yanaşmalar – adı “innovativ yanaşma” qoyulsa da, bu, heç də yaxşı yanaşma deyil. Çünki uşaqlara məktəbdə həddindən artıq özbaşınalıq, sərbəstlik hüququ tanınıb. Müəllimlərin onları tərbiyə etmək, nəzarət etmək hüquqları isə tamamilə məhdudlaşdırılıb. Ətraf mühitdən də ciddi təsirlər var. Uşaqlar küçədə, eləcə də internet məkanlarında mənfi meyillərə məruz qalırlar. Bu məsələdə həm valideyinin, həm cəmiyyətin, həm də dövlətin maraqları eyni olmalıdır.

İndi uşaqlar kitab oxumurlar. Kitab oxumadan böyüyən uşaqdan yaxşı heç nə gözləmək olmaz. Onların məşğuliyyətləri necə təmin olunur? Vaxtları ancaq internetdə mənasız videolara, aqressiv oyunlara həsr olunur, real ünsiyyət aradan qalxır, bir növ virtual dünyada yaşayır. Bu, zombiləşməyə aparıb çıxarır, yad ideologiyaların təsiri altına düşür. Yerli istehsal çizgi filmlərimiz, demək olar, çox azdır. Uşaqlar körpəlikdən yad mədəniyyətlərin hazırladığı filmlərlə, tele-istehsallarla böyüyür, onları tanıyır və milli köklərindən aralı düşür. Fikir vermişəm, gənclərimizin çoxu klassik kinolarımızdan, ədəbiyyatımızdan, folklorumuzdan xəbərsizdirlər. Təbii ki, kiçik bir hissəni çıxmaq şərti ilə.

Sağlam gənclik, sağlam cəmiyyət istəyiriksə, uşaqları, gəncləri düzgün tərbiyə etməliyik. Cənab Prezidentimiz dəfələrlə vurğulayıb ki, Azərbaycan dövləti və cəmiyyəti öz milli-mənəvi dəyərləri üzərində bərqərardır və belə də inkişaf edəcək. Siyasi iradə budur və bu prinsiplə məsələyə yanaşılmalıdır. Valideynlər də məsuliyyətli olmalıdırlar. Təhsil sistemi də məsələyə düzgün yanaşmalı, son vaxtlar apardığı eksperimentlərə son qoymalıdır. Normal milli təhsil və tərbiyə sistemi formalaşmalıdır. Əks halda, sağlam gələcəkdən söhbət belə gedə bilməz. İndidən artıq əlamətlərini görürük.

Sonrakı dövrdə elmə, idmana yönəldilmiş gənclərin işlə təminatına, elmi yaradıcılıqla, mədəni, idman sahələrində özünü realizə etməsinə imkan yaradılmalıdır. Məsələn, uşaq verilişləri yox səviyyəsindədir. Gənclərin asudə vaxtları üçün intellektual yarışlar keçirilməlidir. AZTV-də, İctimai TV-də bu, var. Amma özəl kanallar, kommersiya kanalları bu işdə maraqlı deyillər. Əksinə, bəzi televiziyalar gənclərin tərbiyəsini pozmağa yönəlmiş, milli-mənəvi dəyərlərimiz əleyhinə zərərli təbliğatla məşğul olurlar. Bu aparılan təbliğat qloballaşma proqramı çərçivəsində gedir. Milli dəyərlər sıradan çıxır. Nəticədə boşanmalar üzrə dünya “liderləri”ndən biriyik. Ailə institutumuz dağılır. Narkomaniya, işsizlik sürətlə artır. Bu isə milli genefondun zədələnməsi, məhv olmasıdır.

Burada artıq kompleks yanaşma olmalıdır. Dövlət siyasəti müəyyənləşdirilməlidir. Uşaqların sağlam fiziki və mənəvi inkişafı ilə bağlı xüsusi dövlət proqramı elan olunmalıdır. Dövlət medianı da, cəmiyyəti də, ictimai institutları da buna məcbur etməlidir. Onlar da buna borcludurlar. Sosial məsuliyyət anlayışı var. Hətta şirkətlər belə bu işə dəstək verməlidirlər. Yalnız cəmiyyət və dövlət külüngü bir yerə vurarsa bu işi bacara bilərik və qlobal pozğunlaşma prosesindən özümüzü qoruya bilərik. Sağlam cəmiyyət güclü dövlət deməkdir.

# Qısa və kəskin...

## NATO liderləri Ankara sammitinin yekun bəyannaməsini qəbul etdilər



**_Ankarada keçirilən NATO sammitinin yekun bəyannaməsi ən azı son 25 ildə görünməmiş dərəcədə qısa oldu. O, altı bənddən ibarətdir, NATO sammitinin bəyannamələri isə adətən bir neçə səhifəyə bölünmüş onlarla paraqrafı əhatə edir. İlk dəfə olaraq bəyannamədə növbəti sammitin tarixi və yeri göstərilmir. Mətndə qeyd olunur ki, "Türkiyə tərəfindən bizə göstərilən səxavətli qonaqpərvərliyə görə minnətdarlığımızı bildiririk. Növbəti görüşümüzü səbirsizliklə gözləyirik"._**

### Rusiya təhdid kimi

Sənəddə NATO liderləri Rusiyanın Avro-Atlantik icması üçün "uzunmüddətli təhlükə yaratdığını" iddia ediblər. "Rusiyanın Avro-Atlantik təhlükəsizliyi və sabitliyinə yaratdığı uzunmüddətli təhlükəni, eləcə də davam edən terrorizm təhlükəsini aradan qaldırmaq üçün Müttəfiqlər Haaqa Sammitində götürdükləri öhdəlikləri yerinə yetirirlər", sənəddə deyilir. Qeyd edilir ki, "5-ci maddəyə əsasən kollektiv müdafiəyə və transatlantik bağımıza qətiyyətlə sadiqik. Birinə hücum hamıya hücum deməkdir". Alyans "çəkindirmə və müdafiəyə 360 dərəcə yanaşma"ya sadiqliyini qeyd edib.

### Kiyevə yardım

NATO ölkələri 2026-cı ildə Ukraynaya 70 milyard avro ayıracaq və 2027-ci ildə ölkəyə ekvivalent səviyyədə dəstək verməyi öhdələrinə götürəcəklər. Sənəddə qeyd olunur ki, "2026-cı il üçün NATO ölkələri Ukraynaya 70 milyard avro hərbi texnika, yardım və təlim proqramları təmin etməyi və suveren dəstək öhdəliklərini ən azı 2027-ci ildə ekvivalent səviyyədə saxlamağı öhdələrinə götürürlər". Lakin Ukraynanın alyansa qəbul edilməsi ilə bağlı heç bir öhdəlikdən bəhs edilmir. Bu, yalnız 2026-2027-ci illərdə yardım göstərilməsinə aiddir.

### Yaxın Şərq

NATO ölkələri İranın Hörmüz boğazında naviqasiya azadlığına müdaxilə etməməli və ya nüvə silahı əldə etməməli olduğunu təsdiqləyirlər. NATO sammitinin yekun bəyannaməsində deyilir: "Müttəfiqlər İranın heç vaxt nüvə silahı əldə etməməli olduğunu təkrarlayır və İranı Hörmüz boğazında naviqasiya azadlığına tam hörmət etməyə çağırırlar".

### Hərbi müqavilələr və müdafiə

"Müttəfiqlər Haaqa məhkəməsində götürdükləri müdafiə öhdəliklərini yerinə yetirirlər. 2025-ci ildə Avropa müttəfiqləri və Kanada əsas müdafiə ehtiyaclarına xərclərini 139 milyard dollardan çox artırdılar". NATO ölkələri sammitdə 50 milyard dollar dəyərində yeni müdafiə müqavilələri imzalayıblar və birgə istehsal gücünü artırmağa və innovasiyanı sürətləndirmək üçün sənaye ilə əməkdaşlıq etməyə sadiq qalıblar.

Növbəti NATO Zirvəsi

Yekun bəyanatda növbəti NATO sammitinin tarixi və yeri qeyd edilmir. Ankarada keçirilən NATO sammitində ayrıca bir sənəd - "NATO-nun hərbi sənaye ilə münasibətlərinin yeni və daha dərin səviyyəsini" müəyyən edəcək NATO-Hərbi-Sənaye Əməkdaşlıq Strategiyası qəbul edilib. Qeyd olunur ki, NATO ölkələri Rusiyanı Avro-Atlantik regionu üçün uzunmüddətli təhlükə hesab edir və bu təhlükəyə, o cümlədən hərbi-sənaye kompleksinin inkişafı yolu ilə qarşı çıxmaq lazımdır.

Strategiyada deyilir ki, NATO böhran zamanı silah istehsalının kəskin artmasına hərbi-sənaye kompleksinin hazırlığını yoxlamaq üçün bir sıra masaüstü təlimlər keçirəcək. Sənəddə həmçinin zəruri hallarda silah istehsalını tez bir zamanda artırmaq imkanı ilə genişlənən və çevik istehsal güclərinin inkişaf etdirilməsi nəzərdə tutulur. Deyilir ki, NATO ölkələri müasir texnoloji inkişaf tempinə uyğunlaşmaq üçün yeni texnoloji həllər üçün satınalma prosedurlarını sadələşdirmək və sürətləndirmək niyyətindədirlər. NATO həmçinin müdafiə sənayesindən kənar təchizatçılar da daxil olmaqla, sənaye şirkətlərinin yeni hərbi texnologiyaların hazırlanmasında, sınaqdan keçirilməsində və tətbiqində iştirakını genişləndirmək niyyətindədir. Sənədə əsasən, NATO rəhbərliyi və üzvləri müəssisələri yeni müdafiə və təhlükəsizlik sistemlərinin standartlarının hazırlanmasında, sınaqdan keçirilməsində, nümayiş etdirilməsində, təlimlərdə və qiymətləndirilməsində daha fəal şəkildə cəlb etməyi planlaşdırırlar. Alyans, ehtiyat istehsal gücünə malik istehsalçıları və müəssisələri istehsalı artırmaq üçün əlavə yerə ehtiyacı olan şirkətlərlə əlaqələndirəcək xüsusi bir şəbəkə işə salacaq. NATO həmçinin şirkətlərin Alyansın satınalma, sınaq və innovasiya təşəbbüslərinə çıxışını asanlaşdırmaq üçün müdafiə sənayesi ilə vahid rəqəmsal əlaqə platforması - "NATO Sənaye Portalı" yaradacaq.

### Silah müqavilələri üçün yarmarka

Ankarada keçirilən 36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvəsi (7-8 iyul) əvvəlkilərdən fərqli idi: ilk dəfə olaraq onun rəsmi proqramına müdafiə sənayesi forumu daxil idi. Əvvəllər qeyri-rəsmi olan tədbir böyük bir sənaye forumuna çevrildi. Forumda 100-dən çox müdafiə şirkətinin nümayəndələri toplaşdı. Zirvə toplantısı çərçivəsində imzalanan müqavilələrin ümumi dəyəri 50 milyard dollara çatdı. Yeni müqavilələr ictimaiyyətə açıqlandı ki, bu da blok üçün presedent yaratdı.

NATO-nun baş katibi Mark Rutte forumda çıxışına alyansın gələcək illər üçün innovasiya və silah ehtiyacları ilə bağlı təqdimatla başlayıb. Bu, narahatlıqların istehsalı üzv ölkələrin ehtiyaclarına necə uyğunlaşdıracağını aydın şəkildə başa düşməleri üçün edilib. "Pul oradadır", Rutte şirkətləri daha çox silah istehsal etməyə və bunu daha sürətli etməyə çağıraraq qısa şəkildə bildirib. Alyans və biznes arasında qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün iki yeni proqram hazırlanmışdır:

"NATO Sənaye Qapısı", alyansın mövcud tələblərini istehsalçılara tez bir zamanda çatdırmağa kömək edəcək. "NATO Mühərriki", müdafiə və mülki istehsal xətlərini birləşdirməklə potensialı genişləndirməyi hədəfləyir.

Baş katib həmçinin 40 milyard dollar dəyərində olan genişmiqyaslı pilotsuz təyyarələrə qarşı NATO Drone Edge təşəbbüsünü də təqdim edib. Bu təşəbbüs pilotsuz təyyarələrə qarşı sistemlərə və operator təliminə investisiyaların kəskin şəkildə artırılmasını tələb edir. Bütün bu addımlar alyansın müdafiə xərclərini ÜDM-in 3,5%-nə çatdırmaq barədə əvvəllər bəyan etdiyi öhdəliyi yerinə yetirməyə yönəlib. Üzv dövlətlərdən ÜDM-in əlavə 1,5%-ni hərbi infrastrukturun inkişafına xərcləmələri tələb olunacaq.

Qeyri-rəsmi olaraq, həm forumun yeni statusu, həm də sazişlərin spesifik təbiəti iki məqsədi güdürdü: birincisi, ABŞ prezidenti Donald Trampa Avropa müttəfiqlərinin daha böyük maliyyə məsuliyyətlərini öz üzərinə götürməyə hazır olduqlarını nümayiş etdirmək, ikincisi, Amerika silah təchizatından asılılığı azaltmaq. Bu məsələ, Avropadakı Amerika hərbi kontingenti ilə bağlı qeyri-müəyyənlik nəzərə alınmaqla, xüsusilə aktuallaşıb. Vaşinqton hələlik strategiya və ya onun azaldılmasının miqyasını açıqlamayıb.

Zirvə toplantısına ev sahibliyi edən Türkiyə NATO-nun gələcək əsas texnoloji və istehsal mərkəzi kimi özünü təsdiqləmək fürsətindən istifadə edib. Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi İdarəsinin rəhbəri Haluk Gergün nümayəndələrə Türkiyə hərbi-sənaye kompleksinin nailiyyətlərini şəxsən nümayiş etdirib. Ankarada beşinci nəsil KAAN qırıcı təyyarəsinin nümayiş uçuşu ilə yanaşı, ən son ANKA-3 ağır pilotsuz uçuş aparatının (PUA) nümayişi də keçirilib. Tərtibatçıların fikrincə, pilotlu təyyarələrlə birləşdirildikdə laylı hava müdafiə sistemləri dəf edə bilir. Aparıcı türk şirkətləri (TUSAS, ASELSAN, ROKETSAN) Böyük Britaniya və Hollandiyaya hərbi dronlar və idarə olunan bombaların istehsalı üçün Türkiyədə birgə mərkəz yaratmağı təklif etdilər.

Avropa müdafiə nəhəngləri də amerikalı həmkarlarını yerindən tərpətməyə çalışıblar və bu, xeyli uğurla nəticələnib. Əvvəllər NATO-nun tam hava kəşfiyyatını təmin edən Amerika Boeing E-3A hava erkən xəbərdarlıq təyyarələrinin əvəz edilməsi üçün müqavilənin imzalanması əhəmiyyətli idi. Onlar modifikasiya edilmiş Kanada Bombardier Global 6000 və 6500 biznes təyyarələrinə əsaslanan on İsveç Saab GlobalEye sistemi ilə əvəz olunacaq. Son müqavilə qiyməti hələ də hesablanır, lakin Saab şirkətinin baş direktoru Mikael Johansson bildirib ki, belə bir təyyarənin baza qiymətinin 400-450 milyon dollar olduğu bildirilib.

Airbus həmçinin alyansın Birgə Hava Komandanlığına 12 ədəd A400M hərbi nəqliyyat təyyarəsi tədarükü üçün müqavilə alıb. Almaniya, Niderland, Belçika və Lüksemburq birgə olaraq dörd Airbus A330 MRTT tankeri sifariş ediblər (ekspertlər müqaviləni 1,1-1,3 milyard avro qiymətləndirirlər). Niderland və Belçika inteqrasiya olunmuş Benilüks hava hücumundan müdafiə sistemi yaratmaq üçün müqavilə imzalayıblar, Amsterdam isə Böyük Britaniya ilə birlikdə yeni nəsil döyüş gəmilərinin hazırlanması üçün müqavilə imzalayıb. Amerika müdafiə sənayesi forumdan sonra yalnız bir nisbətən böyük müqavilə bağlaya bilib. Northrop Grumman Almaniya, Danimarka, Norveç və Finlandiyaya beşə qədər MQ-4C Triton uzunmənzilli kəşfiyyat PUA-sı tədarük edəcək. Onlardan Arktika, Baltik və Şimal dənizləri üzərindəki hava məkanını patrul etmək üçün istifadə olunacaq. Hər sistemin qiyməti 140 milyon dollardan 240 milyon dollara qədər dəyişir.

**_V.VƏLİLİ_**

# Mərkəzi Gömrük Hospitalında seminar keçiriləcək

**_10 iyul 2026-cı il tarixində saat 15:00-dan 16:00-dək Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin təşkilatçılığı ilə Mərkəzi Gömrük Hospitalında həkim və rezidentlər üçün növbəti elmi-maarifləndirici seminar keçiriləcək._**

Seminarda Mərkəzi Gömrük Hospitalının Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin həkim-anestezioloq-reanimatoloqu Könül Həsənova "Reanimasiya və əməliyyatxanada manipulyasiyaların icra qaydaları" mövzusunda təqdimatla çıxış edəcək, daha sonra Mərkəzi Gömrük Hospitalının Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin həkim-rezidenti Selcan Həsənova müvafiq mövzu ilə əlaqəli klinik hallar və beynəlxalq tədqiqatlar barədə məlumat verəcək.

Müasir klinik praktikada pasiyent təhlükəsizliyinin təmin olunması, reanimasiya və əməliyyatxana şəraitində manipulyasiyaların standartlara uyğun icrası, eləcə də klinik təcrübələrin paylaşılması məqsədilə təşkil olunan seminar iştirakçılar üçün nəzəri biliklərin artırılması və praktik bacarıqların təkmilləşdirilməsi baxımından əhəmiyyətli platforma olacaq. Tədbir çərçivəsində invaziv manipulyasiyaların icra prinsipləri, aseptika və antiseptika qaydaları, pasiyentin monitorinqi, mümkün ağırlaşmaların idarə olunması, həmçinin real klinik hal əsasında diaqnostik və müalicə yanaşmaları ətraflı müzakirə ediləcək. İştirakçılar məruzəçilərlə fikir mübadiləsi aparmaq və gündəlik klinik praktikada tətbiq olunan müasir yanaşmalarla yaxından tanış olmaq imkanı əldə edəcəklər. Seminar bütün ixtisaslı həkimlər, rezidentlər və orta tibb işçiləri üçün nəzərdə tutulmuşdur. Seminarda iştirak ödənişsizdir və qeydiyyatdan keçmək mütləqdir!

Seminarda iştirak üçün (051) 232 66 64 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği " istiqaməti çərçivəsində hazırlanıb.*

# İtirdiyimiz xüsusiyyətlər: xanımlıq

*Zamanla ayaqlaşanda, dəb dəyişəndə, ənənələr transformasiya olanda unutduğumuz bir dəyər var - xanımlıq. Gözəllik keçici, dəb ötəridir, xanımlıq isə insanın xarakterində yaşayan ən böyük dəyərdir.*



**XXVII YAZI**

Xanımlıq sadəcə bir xüsusiyyət deyil, bu, insanın mənəvi aləmini, tərbiyəsini və həyata baxışını əks etdirən ali dəyərdir. Xanımlıq gözəllikdən daha üstün, var-dövlətdən daha qiymətli, zamandan və dəbdən daha davamlıdır. O, qadının davranışında, danışığında, baxışında, insanlara münasibətində və ən əsası, özünə olan hörmətində yaşayır.

Milli dəyərlərimizdə xanım obrazı həmişə heyranın, abırın və ləyaqətin təcəssümü olub. "Xanımyana" ifadəsi də elə-belə yaranmayıb. Milli qadın obrazı ailəsinin dayağı, övladının ilk müəllimi, cəmiyyətin isə mənəvi sütunu hesab edilib. Səsi eşidilməyib, amma pıçıltı ilə dediyi də əks-sədadır. Xanımlıq təmkini ilə, şəxsiyyəti ilə hörmət qazanılan xüsusiyyətdir.

Xanımlığın təməlindəki həya, abır qadının zəifliyi deyil, insanın özünə qoyduğu mənəvi sərhəd, başqalarına qarşı hörmətdir. Həyalı insan hansı davranışın ona yaraşıb-yaraşmadığını bilir, öz ləyaqətini qoruyur və bu ləyaqət ətrafdakılara da hörmətinin təməlidir. Abır insanın görünməyən sərvətidir. Onu nə pulla almaq, nə də sonradan qazanmaq mümkündür. Abır ailədən gələn tərbiyə, şəxsi məsuliyyət və vicdanla formalaşır. Xanımlığın təməli də məhz bu xüsisyyətlərlə möhkəmlənir.

Müasir dünyada bəzən bu xüsusiyyətlər köhnə düşüncə kimi təqdim edilir. Halbuki, həqiqi xanımlıq zamanla dəyişməyən bir dəyərdir. Hansı əsrdə yaşayırsan yaşa, səni sən edən, xanım edən itirmədiyin dəyərlərindir. Təhsilli olmaq, peşə sahibi olmaq, ictimai həyatda fəal iştirak etmək və eyni zamanda həyalı, nəzakətli, milli-mənəvi dəyərlərinə bağlı qalmaq bir-birinə zidd anlayışlar deyil. Əksinə, bu xüsusiyyətlər bir araya gəldikdə qadın daha güclü və daha dəyərli olur.

Milli xanım obrazı həm zərif, həm də güclüdür. O, çətinliklər qarşısında sınmır, yeri gələndə zərif çiyninə ağır yük alır, yeri gələndə ərinin yükünün xəfiflədir, paralel olaraq ailəsini və dəyərlərini qoruyur. Onun sözündə nəzakəti, davranışında təmkini, qəlbində mərhəməti olur. Zamanla görünüşü dəyişə bilər, lakin xüsusiyyət dəyişmir. İnsanın əsl gözəlliyi onun görünüşündə deyil, mənəviyyatında gizlənir.

Zaman dəyişir, texnologiyalar yenilənir, dünən beş barmağımız kimi tanıdığımız cəmiyyəti bu gün tanıya bilmirik. İnsanlar hər dəqiqə yeniliyə can atır, fərqli istiqamətlərə yönəlir. Bu yolda abrını, xanımlığını itirənlər də olur, zamanın tələbidir deyib dünənki kimliyini bu gün istəməyənlər var, amma bir şey unudulur: həya, abır və ləyaqət kimi dəyərlər heç vaxt köhnəlmir. Xanımlıq da məhz bu dəyərlərin üzərində qurulan, nəsildən-nəslə ötürülən mənəvi mirasdır. Bu mirası qorumaq isə təkcə qadınların deyil, bütöv cəmiyyətin məsuliyyətidir. Çünki xanımlıq bir insanın deyil, bir millətin mənəviyyatını əks etdirən ən gözəl aynadır.

Xanımlıq heç vaxt insanın imkanlarını məhdudlaşdıran bir anlayış olmayıb, olmamalıdır. Əksinə, o, qadına harada olursa-olsun öz ləyaqətini qorumağı, hər şəraitdə şəxsiyyətini itirməməyi öyrədir. Atın belindəki Həcər də xanım idi, diplomayik görüşlərdə dövlətini təmsil edən Sara Xatun da. Tarlada kotan qoşan qadın da xanım idi, səngərdə silaha qurşanan da. Harada və nə iş görməyindən asılı olmayan xüsusiyyətdir xanımlıq. Əsl xanımın böyük gücü sakitliyində, böyük gözəlliyi isə mənəviyyatındadır. Çox rast gəlirəm, bəzən cəmiyyətdə xanımlıq anlayışı yalnız zahiri görünüşlə ölçülür. Halbuki, geyim və zahiri görünüş insanın seçimidir, xanımlıq isə xarakterdir. Mən gözəl geyinə bilərəm, geyimim taməmən xanımyana ola bilər, əgər xatakterimdə o xanımlıq yoxdusa paltarımı dəyişən kimi xanımlığımı da itirmiş oluram. Xanımlıq geyimin, davranışın, xarakterin bir bütöv təşkil etməsindən yaranan anlayışdır. Xanımlıq qadının özünə hörmətindən başlayır. Özünə hörmət edən qadın nə öz ləyaqətini ucuzlaşdırar, nə də başqalarının ləyaqətini alçaldar. O bilir ki, insanın dəyəri onun nə qədər görünməsində deyil, nə qədər faydalı və mənəviyyatlı olmasındadır.

Milli tariximizdə və ailə ənənələrimizdə xanım qadın həmişə ocağın nuru sayılıb. O, ailənin mənəvi dayağı, uşaqların ilk tərbiyəçisi, sevgi və mərhəmətin daşıyıcısı olub. Ana laylasında, nənə nəsihətində, ailə süfrəsində ötürülən dəyərlər məhz o xanım-xatunların sayəsində bu günə qədər yaşayıb. Bu gün də cəmiyyətimizin sağlam gələcəyi üçün xanımlıq anlayışını qorumaq vacibdir. Çünki həya və abır yalnız bir qadının şəxsi xüsusiyyəti deyil, bütöv bir millətin mənəvi sərvətidir. Bu sərvəti qoruyan qadın isə sadəcə ailəsini deyil, gələcəyin mənəviyyatını da qorumuş olur.

Əsl xanımlıq insanın özünü başqalarından üstün tutmasında deyil, öz dəyərlərinə sadiq qalmasındadır. Çünki xanımlıq, gözə görünməyən, amma hər kəsin hiss etdiyi mənəvi gözəllikdir.

***Lalə Mehralı***

# Bütöv və suveren Azərbaycan ərazisində ilk siyahıyaalınma



Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Demoqrafiya sahəsindəki siyasət dövlətimizin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Müasir dövrümüzdə insan inkişafının demoqrafik aspektləri bir sıra amilləri özündə cəmləşdirir. Belə ki, ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edildikdən sonra ilk dəfə ölkənin bütün ərazisi üzrə əhaliyə dair müfəssəl məlumatların əldə edilməsi və sosial-demoqrafik vəziyyətin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı əsasında 2029-cu il oktyabrın 1-nə olan vəziyyət üzrə əhalinin növbəti siyahıyaalınması həmin ilin oktyabrın 1-dən 31-dək keçirilcək. Sənədə əsasən, əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə edilib. Nazirlər Kabineti 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planını iki ay müddətində təsdiq eedəcəkdir. Əhalinin siyahıyaalınması ilə bağlı zəruri məlumatların inzibati mənbələrdən əldə edilməsi üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarında və sistemlərində olan müvafiq məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyasının təmin edilməsi ilə bağlı tədbirlər görəcək.

### GENİŞMİQYASLI İQTİSADİ TƏRƏQQİ DEMOQRAFİK İNKİŞAFA TƏKANDIR

Təbii ki, demoqrafiya sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi də qeyd olunan amillər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafının təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artması ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir.Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Dövlət başçısı çıxışlarının birində bildirdiyi kimi, "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər".

### "BİZ HƏR İL 10 MİNLƏRLƏ YENİ İŞ YERİ YARATMALIYIQ"

Ötən 23 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Ölkəmizdə son 23 il ərzində bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. "Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun", – çıxışlarının birində deyən Prezident bildirib ki, müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün: "Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

Bu gün Azərbaycan dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasındadır. Hətta Azərbaycan siyasi və iqtisadi çəkisinə görə dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb. Təbii ki, bu işlərin də müəllifi və həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevdir. Təbii ki, imzalanan sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində göründüyü kimi, əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.

***Zümrüd BAYRAMOVA***

SƏS
10 iyul
2026-cı il

# Gömrük qaydaları: xaricdən hansı məhsulları sifariş etmək olmaz?

***Son illər xaricdən onlayn alış-veriş edənlərin sayı sürətlə artır. "Temu", "Trendyol", "Shein", "AliExpress" və digər platformalardan verilən sifarişlər gündəlik həyatın bir hissəsinə çevrilib. Lakin hər məhsulu internet vasitəsilə sifariş edib Azərbaycana gətirmək mümkün deyil. Bəzi malların ölkəyə gətirilməsi qanunvericiliklə tam qadağandır, bəziləri isə yalnız müvafiq dövlət qurumlarının icazəsi ilə idxal oluna bilər. Bu qaydaları bilməmək isə sifarişin gömrükdə saxlanılması, geri qaytarılması, hətta inzibati məsuliyyətlə nəticələnə bilər. SİA mövzu ilə bağlı araşdırma edib.***




### Azərbaycana gətirilməsi qadağan olunan məhsullar

Gömrük qanunvericiliyinə əsasən aşağıdakı məhsulların poçt və ya karqo vasitəsilə ölkəyə gətirilməsinə icazə verilmir:

-Odlu silahlar, döyüş sursatı və silah hissələri;

-Partlayıcı, yanıcı və digər təhlükəli maddələr;

-Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları;

-Radioaktiv və zəhərli kimyəvi maddələr;

-Bioloji təhlükə yaradan materiallar;

-İnsan orqan və toxumaları;

-Pornoqrafik məzmunlu materiallar;

-Terrorizmi, zorakılığı və dini, irqi nifrəti təbliğ edən məhsullar.

### Xüsusi icazə tələb olunan mallar

Bəzi məhsulların gətirilməsi tam qadağan edilməsə də, bunun üçün aidiyyəti dövlət orqanlarının icazəsi tələb olunur. Bunlara daxildir:

-Müəyyən dərman preparatları və tibbi vasitələr;

-Bitki toxumları, tinglər və digər fitosanitar nəzarətə aid məhsullar;

-Canlı heyvanlar və baytarlıq nəzarətində olan məhsullar;

-Nəsli kəsilməkdə olan heyvan və bitki növləri;

-Tarixi və mədəni əhəmiyyət daşıyan əşyalar.

### Ən çox problem yaradan sifarişlər

Gömrükdə ən çox problemlə üzləşən məhsullar arasında elektron siqaretlər və onların ehtiyat hissələri, bəzi dərman preparatları, bitki toxumları, bioloji əlavələr, soyuq zəncir tələb edən qida məhsulları və mənşəyi tam bəlli olmayan kimyəvi maddələr yer alır. Vətəndaşlar çox vaxt bu məhsulların məhdudiyyətlərə aid olduğunu bilmədən sifariş verirlər.

### Gömrük limiti

Hazırda fiziki şəxslər üçün xaricdən poçt və ya karqo vasitəsilə gətirilən şəxsi istifadə mallarına aylıq 300 ABŞ dolları məbləğində güzəşt limiti tətbiq olunur. Bu məbləğdən artıq olan sifarişlərə görə qanunvericiliyə uyğun gömrük ödənişləri hesablanır.

### Sifariş verməzdən əvvəl bunlara diqqət edin

Onlayn alış-veriş etməzdən əvvəl məhsulun Azərbaycana gətirilməsinə icazə verilib-verilmədiyini araşdırmaq vacibdir. Məhsulun dəyərini düzgün bəyan etmək, gömrük sənədlərini vaxtında təqdim etmək və lazım gəldikdə müvafiq icazələri əvvəlcədən almaq həm əlavə xərclərin, həm də sifarişin gömrükdə saxlanılması riskinin qarşısını alır. Xaricdən sifariş verərkən yalnız məhsulun qiymətinə deyil, onun ölkəyə idxal qaydalarına da diqqət yetirmək vacibdir. Əks halda, sərfəli görünən alış-veriş həm maddi itkiyə, həm də uzunmüddətli hüquqi prosedurlara səbəb ola bilər.

### Dünyada gömrük qaydaları necə tənzimlənir?



Dünyanın əksər ölkələrində gömrük qaydalarının əsas prinsipləri oxşardır. Demək olar ki, bütün dövlətlər təhlükəsizlik, ictimai sağlamlıq, ətraf mühitin qorunması və milli maraqlar baxımından müəyyən məhsulların ölkəyə gətirilməsinə ya tam qadağa qoyur, ya da xüsusi icazə tələb edir. Bu sahədə ölkələr əsasən Ümumdünya Poçt İttifaqı (UPU) və milli gömrük qanunvericiliyinə uyğun fəaliyyət göstərirlər.

**Lakin qadağalar ölkədən-ölkəyə dəyişə bilər. Məsələn:**

-ABŞ-də odlu silahlar, bəzi dərman preparatları, kənd təsərrüfatı məhsulları, təzə meyvə və tərəvəz, ət və süd məhsulları, həmçinin saxta brend məhsulların idxalına ciddi məhdudiyyətlər tətbiq edilir. Son illərdə aşağı dəyərli bağlamalara nəzarət də daha da sərtləşdirilib.

-Avropa İttifaqı ölkələrində bitkilər, toxumlar, heyvan mənşəli qidalar, bəzi kosmetik və kimyəvi məhsullar fitosanitar və baytarlıq nəzarətindən keçmədən ölkəyə buraxılmır. Nəsli kəsilməkdə olan heyvan və bitkilərdən hazırlanan məhsulların idxalı isə xüsusi icazə tələb edir.

-Avstraliya və Yeni Zelandiya dünyanın ən sərt biotəhlükəsizlik qaydalarına malik ölkələri hesab olunur. Toxum, ağac materialları, torpaq, meyvə, ət, süd məhsulları və hətta bəzi qida məhsulları belə ciddi yoxlamadan keçirilir və çox vaxt ölkəyə buraxılmır.

-Sinqapur, Yaponiya və Cənubi Koreya kimi ölkələrdə isə dərman preparatları, elektron cihazlar, batareyalar və kimyəvi məhsullarla bağlı xüsusi gömrük tələbləri mövcuddur.

Ümumilikdə, beynəlxalq təcrübə göstərir ki, internetdən sifariş verilən məhsul bir ölkədə sərbəst satılsa belə, onun başqa ölkəyə idxalına icazə verilməyə bilər. Bu səbəbdən sifariş verməzdən əvvəl həm göndərən ölkənin, həm də qəbul edən ölkənin gömrük qaydaları ilə tanış olmaq tövsiyə olunur.

***Ayşən Vəli***

ARAŞDIRMA

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## ELAN

**Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2021-ci il tarixli 2449 nömrəli Sərəncamına əsasən Orxan Feruz oğlu Əbdürrəşidova verilmiş, Bakı şəhəri, Sabunçu rayonu, Ramana qəsəbəsi, Yeni Yaşayış kompleksi, bina 24, mənzil 4 ünvanında yerləşən mənzilin sənədləri(sərəncamı) itdiyi üçün etibarsız sayılır.**

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**